# "ONUN ÜRƏYİ HƏYAT EŞQİ İLƏ ÇIRPINIRDI..."



**Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən müharibəsi şəhidi Fəxri Habil oğlu Məmmədovun (27 iyul 2000-ci il Bakı şəhəri - 27 sentyabr 2020-ci il Cəbrayıl rayonu, Nüzgar kəndi) anası Kəmalə Fəxri ilə müsahibə.**

Türk dünyasının böyük şairi rəhmətlik Hüseyn Nihal Atsız "Qəhrəmanlıq" adlı şeirində deyirdi ki, qəhrəmanlıq acı ölüm kuzəsindən içib irəliyə atılmaq və bir daha dönməməkdir. Əzəldən əbədiyə qədər qəhrəman gəlib qəhrəman gedən Azərbaycan oğulları can verilməli olan zaman düşünmür, öz canını Vətən uğrunda fəda edir və heç uf da demir. Onlar üçün bu dünya, bu ucsuz-bucaqsız torpaqlar, sonu görünməyən səma və bunların hamısını görməyə imkan verən həyat ikinci, bəlkədə sonuncu dərəcəli bir şeydir. Onlar üçün ən əsas olan Vətən, torpaq və Allahın çağırışları üçün irəliyə, yalnız irəliyə düşmən üzərinə atılmaqdır. Allaha iman edən, Vətənini sevən hər bir qəhrəman bilir ki, bu dünya belə insanlar üçün bir sınaq meydanıdır, əsl qəhrəmanların baş çıxara biləcəyi bir meydandır. Əsas olan axirət dünyası və orada bəşər övladının tutacağı mövqedir. Qəhrəmanlar məhz o biri dünyada yaxşı bir mövqe tutmaq üçün bütün ömürlərini doğru-dürüst, kişi kimi, mərd və Allaha sədaqətlə sürürlər. Onlar əslində bilmirlər ki, çoxdan Allahın seçilmiş bəndələri olublar və gələcəkdə haqq ordusunun kafir ordusu ilə girişdiyi müharibədə vəzifələndiriliblər. Onlar öz ömür paylarını bundan xəbərsiz yaşayırlar, Vətənə layiq, Allahın bəndəsi olmağa layiq bir insan kimi, əsl insan kimi yaşayırlar. Sonra isə bir gün gəlir və Allah hər bəndəsini sınağa çəkdiyi kimi bu seçilmiş bəndələrini də sınağa çəkir. Onlar haqq ilə kafirin savaşını cani dildən, qəlbdən qarşılayırlar və sanki toy-bayram imiş kimi alovun-odun adi hal aldığı cəng meydanına atılırlar. Hər kəsi qorxudan, ətini ürpədən çətin vəziyyətlər və hətta ömür boyu insanların o mətləbdən uzaq gəzdiyi ölüm riski onlar üçün adiləşir, heç nəyə çevrilir. Çünki onlar ilk başlanğıcdan bəri bunu istəyirdilər. Allah yolunda yaşamaq, Allah yolunda çarpışmaq və onun yolunda Şəhid olmaq. Ömürlərini ziyan qaranlığında yox, ziya işığında yaşayan və sağ ikən hər kəsə yaxşı mənada örnək olan Şəhidlərimiz buna misaldırlar. 44 günlük şanlı Vətən müharibəmizdə oddan-oda, alovdan-alova qaçan, Zəfərə doğru addımlayan və xalqımızı gündən-günə Zəfərə yaxınlaşdırmaq üçün namümkünləri belə mümkün edən Qazilərimiz və Şəhidlərimiz bizim baş tacımızdırlar. Onların həyatını öyrənmək üçün bizə onilliklər belə bəs etməyəcək. Lakin bunun ziyanı yoxdur, ziyası var. Şəhidlərimizin yolu Allahımızın yoludur və bu yolda sərf olunan illər həyatın, ömrün qızıl hərfləri ilə tariximizə həkk olunan illəridir.

Vətəni yolunda, heç zaman görə bilmədiyi ata yurdu Laçını uğrunda 20 illik cavandan cavan olan ömründən keçən, səhhətində problemləri olsa belə evdə qalmağı yox, hərbi hissədə Vətənə şərəflə xidmət etməyi seçən, ilk azad olunan kəndlərimizdən, həm də böyük Zəfərimizinqızıl açarlarından olan Cəbrayıl rayonunun Nüzgar kəndində şəhidliyə ucalan hərbiçimiz Fəxri Habil oğlu Məmmədov da buna misaldır. Mən qərara gəldim ki, onu tərcümeyi-hal ilə çərçivəyə salmayım. Çünki onun həyatına neçə-neçə çərçivələr gərəkdir. İstədim ki, Şəhidimizi bir də onun anasının dilindən eşidim və nəticədə, Şəhidimizin anası Kəmalə anadan oğlu ilə bağlı müsahibəni götürdüm. Həmin müsahibəni siz oxucularıma təqdim edirəm.

**- Salam. Zəhmət olmasa, əvvəlcə özünüzü təqdim edə bilərsinizmi?**

- Salam. Mən 30 il erməni tapdağı altında qalmış Qarabağ torpaqlarının bağlı qapılarını qanı və canı bahasına açanlardan biri, 20 yaşlı şəhid Fəxri Habil oğlu Məmmədovun anası Kəmalə Fəxriyəm.

**- Vətən müharibəsi şəhidi Fəxri Məmmədov haqqında ilk öncə bir ana olaraq nə deyə bilərsiniz? Uşaqlıq vaxtlarında o, necə biri idi?**

- Fəxri lap körpəlik çağlarından çox sakit, ağıllı uşaq idi. O, tez-tez xəstələnərdi. Buna baxmayaraq idmanı çox sevir, futbol və kikboksinq idman növü ilə məşğul olurdu. Televiziyada yayımlanan müharibə mövzusunda filmləri izləməyi çox sevirdi. Hər zaman atasına oyuncaq silahlar aldırır, həmin oyuncaq silahla oynamağı, xüsusən də düşmənini məhvetməyi çox sevirdi. Kiçik yaşlarından yaxşını pisdən ayırmağı bacarırdı. Çox hissiyatlı, həssas uşaq idi. Heç vaxt tərbiyəsi zəif uşaqlara qoşulmazdı. Onun ətrafında olan uşaqlar da özü kimi ağıllı, tərbiyəli uşaqlar olardı. Fəxri məktəbə qədər yazıb oxumağı bacarırdı. Musiqiyə çox bağlı idi. Evimizdə pianino var idi. Mən pianinoda ifa edərdim, o isə oxuyardı. İlk təhsilini 2007-ci ildə Bakı şəhəri, Sabunçu rayonu Şəhid Cəlal Məmmədyarov adına 155 saylı tam orta məktəbdə almışdı. Məktəbə qədəm qoyan gündən Fəxri sakit, mehriban, tərbiyəli davranışı və çalışqanlığı ilə müəllim, şagird və valideynlərin hörmətini qazanmışdı. Oxuduğu müddətdə o, məktəbin nümunəvi şagirdi kimi tanınırdı. İbtidai siniflərdə oxuyan vaxtlarda Fəxri möhkəm xəstələndi. Bu səbəbdən Fəxrinin səs tellərində dəyişikliklər olmuşdu. Həkimlərin qoyduğu diaqnoza görə Fəxri astma xəstəsi idi. Orta məktəbi Fəxri həkimlərin və mənim səyim nəticəsində 9-cu sinifə kimi oxudu. Və bu müddət ərzində məktəbin bütün tədbirlərində yaxından iştirak etdi. 9-cu sinifi bitirdikdən sonra təhsilini 14nömrəli liseydə davam etdirdi. Bu təhsil ocağında da qısa müddətdə Fəxri hamının hörmətini qazandı və nümunəvi şagird olaraq şəklinin şərəf lövhəsindən asılmasına nail oldu. Hərbi xidmətə, hərb sənətinə marağı çox olduğuna görə o, atıcılıq dərslərinə gedir və eyni zamanda musiqiyə də böyük maraq göstərərək gitaranı ifa etməyi öyrənirdi. O, liseyin bütün tədbirlərində vətənpərvər mahnılar ifa etməklə iştirak edirdi. Fəxri 2019-cu ildə təhsilini başa vurduqdan sonra çoxdan arzuladığı vətənə olan borcunu ödəmək üçün hərbi xidmətə yollandı. Həmin gün, bəlkədə həyatında onun ən sevincli, ən xoşbəxt günü idi.

**- Öyrəndiyimə əsasən deyə bilərəm ki, Şəhidimiz əslən Laçın rayonunun Şamkənd kəndindəndir. O, uşaqlıq vaxtlarında Laçın haqqında maraqlanırdımı, sizdənLaçının təbiəti, mənzərəsi, havası, suyu haqqında nə isə soruşurdumu?**

- Fəxrinin atası əslən Laçın rayonundandır və yurd-yuvaları, ata ocağı erməni mənfurları tərəfindən işğal edilibviran qoyulmuşdu. O, vətənini, doğma yurdyuvasını həddən çox sevirdi və vətən sevgisini ailədə övladlarına da aşılayırdı. Hər dəfə əlinə ağ vərəq alan ata ailəsini, uşaqlarını başına toplayıb Laçındakı evlərinin sxemini, çertyojunu ağ vərəqə cızar, evlərinin harada, necə bir füsunkar təbiətdə yerləşməsini ağız dolusu, ürək yanğısı ilə onlara izah edirdi. O, uşaqlara Laçının dağlarından, igidlərimizə sipər olan, qartallı sıldırım qayalarından, Laçının füsunkar gözəlliyindən, çaylarından, bulaqlarından, ağaclarından, kollarından ağız dolusu, həmdə fasiləsiz, yorulmadan söhbət açardı.Fəxri də, bacıları da atalarının bu söhbətlərinə diqqətlə, yorulmadan qulaq asardılar.Fəxri Laçına qayıtmaq arzusuiləümidi sönməyən bir ailədə böyümüşdü. O, deyirdi ki, torpaqlarımızın azad edilməsi uğrunda başlayan haqq müharibəsində Laçına ilk qədəm qoyanlardan biri mən olacağam və Laçının azad edilməsi xəbərini sizə ilk olaraq mən müjdələyəcəyəm. Bəlkədə deyərdim ki, bu, onun ən ülvi arzusu idi.

**- Şəhidimizin necə xasiyyəti var idi? Böyüklə, kiçiklənecə davranırdı, onlara qarşı münasibəti necə idi?**

- Fəxri çox müsbət xaraktera, xasiyyətə malik idi. Yaşındanasılı olmayaraq insanlarla salamlaşmağı, onlardan hal-əhval tutmağı çox sevər, bunu, bəlkədə özünə borc bilərdi. Onun altıncı hissi güclü idi.Dostlarına sadiq idi.Evimizdə də hamının qayğısını çəkərdi. Hərdən mən xəstələnəndə balaca bacılarını məktəbə o, aparıb-gətirərdi. O, kiçik yaşlarından bizim, onu tanıyanların dərd ortağı, həmdəmi, sirdaşı idi.Onda hər kəsi sona qədər səbirlə dinləmək qabiliyyəti vardı. Mən qəmlənəndə tez gitarasını əlinə alıb mənim sevdiyim mahnını -"Könlümə düşmüsən" mahnısını ifa edib oxuyardı. Onun ürəyi daim həyat eşqi ilə çırpınırdı.Sevirdi, sevilirdi.Gələcək üçün planlar qurardı.Bizi yaxşı yaşatmaq, çətinliklərimizi unutdurmaqüçün gələcəkdə nələriedəcəyini vəd etməzdi ki?

**- Zəhmət olmasa, Şəhidimizinhərbi xidmətə nə vaxt yollanmasından vəəsgərlik həyatını necə keçirməsindən bəhs edərdiniz.**

- Fəxri hələ 9-cu sinifdə oxuyanda hərbi komissarlıqdan onun üçün ilk çağırış vərəqini aldıq.Mən ana olaraq düşünürdüm ki, yəqin,Fəxrini xəstəliyi ilə bağlı hərbi xidmətə yararsız sayarlar.Ayaqlarında revmatizm olduğu üçün çox vaxt axsaya-axsaya yeriyirdi.Atası isə həmişə deyirdi ki, mən Laçındanam, mənim oğlum Murovdağında xidmət etməlidir ki, o yüksəklikdən doğma Laçın torpaqlarını görə bilsin. Fəxri nə qədər ağrısa da onun arzusuvətənə xidmət etmək idi və o, özününən ülvi arzusunun, eyni zamanda atasının arzusunun ardınca sevə-sevə addım atdı, bu yolda irəlilədi. 21 iyul2019-cu ildə hərbi çağırışa getdi. İki gün sinif yoldaşları və ailəmiz onu yola salmağa getdik. Bəlli olmayan səbəblərdən Fəxrimi əsgərliyə aparmadılar.Nəhayət, 23iyul 2019-cu ildə Fəxrini əsgərliyə apardılar və o, Ağcabədidə yerləşən N saylı hərbi hissədə xidmət etməyə başladı. Əsgər həyatı Fəxri üçün çox sevindirici və maraqlı idi.İlk telefon danışığımız27iyul2019-cu ilə, Fəxrimin ad gününə təsadüf etmişdi.Biz ondan nigaran idik, o isə bizdən. Söhbət zamanı o, "Hər şey yaxşıdır", - dedi. Telefon danışığı zamanı o, mənim kövrəldiyimi hiss etmişdi, ona görə də dedi: "Ana, ağlama. Torpaqlarıişğal altında olan əsgərin anasına yalnız torpaqlarımızın işğaldanazad edilməsi xəbərini eşidəndə sevincdən ağlamaq düşər". Xidməti zamanı biz tez-tez onun yanına görüşə gedərdik.Heç vaxt narazılıq etməzdi.And içmədən sonra Fəxrimizi Beyləqandakı N saylı hərbi hissəyə göndərdilər. Orada da xidmətindən məmnun olduğunu bildirir, narazılıq etməzdi, hansı ki biz onun mədəsində də ağrıların olduğunu bilirdik. Onun sinif yoldaşları sağ olsunlar ki, ziyarət edib darıxmağa qoymurdular. Həkim diaqnozuna əsasənFəxrinin mədəsində daxili qanaxma müəyyən edilmişdi. Həkim Fəxrimizi otağa çağırıb ona"Səni bu diaqnozla xidmətdən azad edirik, sən bu diaqnozla xidmət edə bilməzsən", - demişdi. Ancaq Fəxri həkimlə razılaşmamışdı. Demişdi ki,mən xidmətimi davam etdirmək istəyirəm.Beləcə hospitaldan çıxıb xidmətini davam etdirmişdi.Gedəndə özü ilə sevimli gitarasını da aparmışdı.-Demişdi ki, asudə vaxtlarda çalacağam.-Yeni mahnılar yazmışdı.Arada telefonda mənə zümzümə də edirdi. 11 yanvar 2020-ci ildə nümunəvi xidmətinə görə onu məzuniyyətə buraxmışdılar. Gəldi və hamıyla görüşdü.Hara çağırırdılarsa, hərbi formada gedirdi.Hərbi formasını çox sevirdi.10gündən sonra onu yola saldıq və bir daha üzünə həsrət qaldıq.

**- Şəhidimizin gələcəklə bağlı nə kimi planları, arzuları, düşüncələri var idi?Bu barədə sizə bildirirdimi?**

- Onun gələcəklə bağlı çox arzuları, düşüncələri, planları var idi. Hətta gələcəkdə ailə quracağı, sevdiyi qız var idi.-Həmin qızla hələ orta məktəb illərindən paralel siniflərdə oxuyurdular. Ailələrimiz biri-biri ilə tanış olmuşdu. Onlar biri-birlərini çox sevirdilər.Fəxrihərbi xidməti başa vurduqdan sonra işə düzələcəkdi və onlar ailə həyatı quracaqdılar.-Fəxri xoşbəxt, firavan bir ailə qurmaq, halal zəhmətlə çalışıb halal zəhmətlə təməli qoyulacaq bir ailə qurmaq arzusunda idi. Nə etmək olar, qismət olmadı...

*(Davamı var)*



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi, şair-publisist, AJB üzvü***